Assembler proqramlaşdırma dili

x86 Linux (64 bit)

Əhməd Sadıxov

Buraxılış 1.0

24.04.2012

Önsöz

Prosessoru (**CPU**) kompüterin "ürəyi" və "beyni" hesab edə bilərik.Kompüterin yaddaşından və giriş/çıxış portlarından məlumatın oxunması, məlumatlar üzərində müxtəlif hesab, müqaisə, sürüşmə,məntiq v.s. əməliyyatların aparılması, emal olunmuş məlumatların təkrar yaddaşa (portlara) yazılması, hər-cür kəsilmələrin qəbul olunması və cavab verilməsi, habelə fiziki yaddaşın müxtəlif məlumat və instruksiya sahələrinə edilən müraciətlərə nəzarətin təmin olunması v.s. işlər məhs **CPU** tərəfindən həyata keçirilir.

CPU -nun dilinə proqramlaşdırma dilləri arasında ən yaxın dil Assembler dilidir. Yüksək səviyyəli dildə proqram tərtib edərkən **CPU** -nun əhəmiyyəti demək olar ki hiss olunmur. Buna səbəb isə kompilyator proqramlarıdır. Kompilyator bizim yüksək səviyyəli dildə yazdığımız proqramları assembler dilinə, daha sonra isə maşın dilinə , yəni obyekt koda çevirir.

Assembler dilində isə proqram tərtib edərkən yazdığımız kod cüzi dəyişikliyə uğrayaraq (maşın dilinə çevrilərək) birbaşa **CPU** tərəfindən icra olunur.

Bu kitab Assembler dilindən bəhs edir. Paralel olaraq **CPU**-nun arxitekturası, iş prinsipi, fiziki yaddaşın strukturu, **CPU** -nun yaddaşa müraciət metodları v.s. barədə nəzəri məlumatlar verilir və assembler dilində müvafiq proqram kodları ilə praktik nümunələr gətirilir.

İçindəkilər

$1 Prosessor - CPU

CPU(prosessor) ilə sadə tanışlıq

CPU -nu kiçik bir mikrosxemə yerləşdirilimiş böyük bir zavod kimi təsəvvür eləmək olar. Onun iş prinsipini, strukturunu izah eləmək üçün bir neçə kitab tələb olunur. **CPU** barədə ətraflı məlumat əldə etmək istəyənlərə üçün **Intel 80386 Programmer's Reference Manual**. kitablarını məsləhət görürəm.
CPU unit(vahid) adlandırılan bir neçə hissədən ibarətdir. Bunlardan ən əsas hissələr **Execution** (instruksiyaları icra edən), **İnstruction Decode** (instruksiyaları çevirən), **Segment** , **Paging** (yaddaşı idarə edən) və Proqramlaşdırmada ən çox istifadə olunan **Registers** (reqistrlər) hissəsidir. Reqistrlərdən başqa yerdə qalan bütün hissələr sırf sistem proqramlaşdırmaya aiddir. Yeganə reqistrlərdən istifadəçi proqramlaşdırmada istifadə olunur . Bundan əlavə istifadəçi proqramlarına prosessorun əməliyyatlar sisteminin müəyyən elədiyi kəsilmələr çağırmaq imkanı da verilir.
Burada biz assembler dilində istifadəçi proqramlaşdırmanı örgənəcəyik. Buna görə hələlik sadəcə reqistrləri bilməyimiz kifayətdir.

Registerlər

Reqistrlər prosessorun xarici dünya ilə əlaqə saxlaması üçündür. **CPU** ilə əlaqə saxlamaq üçün istifadə olunan ən əsas iki vasitədən biri məhs **CPU** -nun reqistrləridir, digər vasitə isə siqnallardır(kəsilmələr).
Qeyd: Nə qədər üzücü olsa da qeyd eləməliyəm ki, Windows əməliyyatlar sistemində hansısa (naməlum) məqsədlər üçün istifadə olunan Reqistr ifadəsi **CPU** -nun reqistrləri ilə qarışıqlıq yaradır. **CPU** -nun reqistrləri ilə Windowsda istifadə olunan reqistr faylları arasında qətiyyən heç bir əlaqə yoxdur, təmamilə ayrı məhfumlardır. Sadəcə olaraq anlamıram niyə Microsoftun proqramçıları bu qədər kritik əhəmiyyəti olan reqistrlər terminindən ayrı məqsəd üçün istifadə edirlər.
Gəlin registrlərlə daha yaxından tanış olaq
Registr çox kiçik ölçüyə malik olan, prosessora aid yaddaş sahəsidir. Prosessor hər-hansı proqramı icra etmək üçün fiziki yaddaşdan bu proqramın məlumat və instruksiyalarını kiçik hissələrlə əvvəlcə özünün reqistrlərinə köçürür, daha sonra emal etmək üçün digər hissələrə ötürür. Bu fikirdən yanaşsaq görərik ki, reqistrlərdən prosessor məlumatları müvəqqəti olaraq saxlamaq üçün istifadə edir. Registrlərin ölçüsü prosessorun arxitekturasından asılı olaraq 2, 4, 8 bayt və daha artıq ola bilər. Başqa sözlə 16, 32, 64 bit v.s. Prosessorun reqistrlərinin sayı arxitekturadan asılı olaraq müxtəlif ola bilər. **İntel i386** arxitekturalı prosessorların təqribən 17-yə yaxın reqistri olur. Prosessor bu reqistrləri müxtəlif məqsədlər üçün istifadə edir. İstifadə sahələrinə görə reqistrlər aşağıdakı qruplara bölünür: ümumi reqistrlər, yaddaş reqistrləri, idarə reqistrləri, sazlama reqistrləri , bayraqlar v.s.
Biz bu dərslikdə əsasən prosessorun ümumi reqistrlərini örgənəcəyik.
Bundan sonra prosessor dedikdə İntel 80386 arxitekturalı prosessorlar nəzərdə tutulur.

Prosessorun ümumi reqistrləri aşağıdakılardır: **EAX, EBX, ECX, EDX, EBP, ESP, ESİ və EDİ**. Bu reqistrlərin hər birinin ölçüsü 32 bitdir (4 bayt)



Bu reqistrlərinin hər birinin ilk 16 bitinə ayrıca uyğun olaraq **AX, BX, CX, DX, BP, SP, Si** və **Di** adları ilə müraciət etmək olar. 16 bitlik məlumatlarla işləyən zaman bu imkan çox əlverişlidir.



Bundan əlavə **AX, BX, CX, DX** reqistrlərinin özləri də 8 bit - 8 bit olmaq üzərə 2 hissəyə bölünürlər. Bu hissələr uyğun olaraq **AH, BH, CH, DH** (15 - 8 bit) və AL, BL, CL DL (7-0 bit) -dir.



Proqramın daxili strukturu

Müasir icraolunabilən faylların (proqramların) daxili strukturu müxtəlif hissələrdən ibarətdir. Bu hissələrin hər birinin təyinatı və iş prinsipinin örgənilməsi sistem proqramlaşdırma mövzusudur. Bu barədə ətraflı məlumat almaq istəyənlər aşağıdakı sənəddən faydalana bilərlər:

Tool Interface Standards (TIS) Portable Formats Specification, Version 1.1 Executable and Linkable Format (ELF)

Bu sənəddə **elf** tipli linklənəbilən və icraolunabilən faylların (obyekt faylların və proqramların) daxili strukturu tam detalları ilə izah olunur.

Biz isə bir qədər sadələşdirilmiş şəkildə proqramın strukturu ilə tanış olacayıq. Strukturunun mürəkkəbliyindən asılı olmayaraq hər bir proqram özündə iki əsas hissəni saxlamalıdır : məlumatlar və instruksiyalar. Məlumatlar proqramın icrası zamanı elan olunan və istifadə olunan məlumatlardır, İnstruksiyalar isə proqramın bu məlumatlar üzərində yerinə yetirdiyi əməliyyatlardır. Bunları nəzərə alsaq icraolunabilən proqramın sadə strukturunu aşağıdakı kimi verə bilərik:



Proqramın məlumat hissəsi **.data** , instruksiyalar hissəsi isə **.text** kimi işarə olunur. Qeyd edim ki, yüksək səviyyəli dillərdə biz, məlumatları və instruksiyaları proqram mətnində qarışıq istifadə edirik və proqramın mətnini məlumatlar və əməliyyatlar kimi müxtəlif hissələrə ayırmırıq. Bu işlər proqramın kompilyasiyası zamanı kompilyator tərəfindən həyata keçirilir.
Assembler dilində isə görəcəyimiz kimi məlumatlar və instruksiyaları proqramın müvafiq hissələrində yerləşdirməliyik.

İlk proqram

Beləliklə biz prosessorun və proqramın strukturu ilə müəyyən dərəcədə tanış olduq, artıq assembler dilində ilk proqram nümunəsini daxil edə bilərik.

```
#prog1.s

.text
.globl _start

_start:

movl $1, %eax
int  $0x80
```

Proqramın izahı

Proqramın ilk sətri **#prog1.s** sətridir. Assembler proqramlarında # ilə başlayan sətirlər şərhləri bildirir.
Növbəti sətir **.text** sətridir. Bu ifadədə proqramın instruksiyalar hissənin başlanğıcını elan edirik.
Proqramımızda növbəti sətir .**globl** _**start** sətridir. Ümumiyətlə . ilə başlayan ifadələr yığma proqramı üçün nəzərdə tutulub(proqramın assembler mətn kodunu obyekt koda çevirən proqrama yığma proqramı deyilir).
.globl ifadəsi yığma proqramına _**start** nişanının qlobal nişan olduğunu bildirir. Bu barədə hələlik dərinə getməyək.
Proqramın növbəti sətri _**start:** sətridir. Assembler dilində qoşanöqtə (:) ilə bitən ifadələr nişan adlandırılır və hansısa məlumat və ya kod hissəsinin başlanğıcına

işarə edirlər.
Nişanları **.text** və **.data** hissələrində istədiyimiz kimi təyin edə bilərik. Bəzi nişanlar isə, o cümlədən **_start** nişanı əvvəlcədən təyin olunmuş xüsusi əhəmiyyətli nişanlardır.
_start nişanı proqramın icraya başladığı yeri bildirir.
Növbəti sətir **movl $1, %eax** instruksiyasıdır. Bu instruksiya birbaşa prosessor tərəfindən icra olunur və bu zaman prosessorun **%eax** reqistrinə 1 qiyməti yazılır. Assembler dilində (AT&T sintaksisi) reqistr adlarını dəyişən və digər adlardan fərqləndirmək üçün reqistr adlarının əvvəlinə faiz(**%**) işarəsi artırılır. Ədədləri isə yaddaş ünvanlarından fərqləndirmək üçün **$** işarəsindən istifadə edirlər. Bu barədə ətraflı irəlidə yaddaşa müraciət metodlarını örgəndikdə tanış olacayıq.
Proqramın sonuncu instruksiyası isə **int $0x80** instruksiyasıdır.
int instruksiyası kəsilmə instruksiyasıdır. İstifadəçi proqramları əməliyyatlar sistemindən hər hansı xidmətin yerinə yetirilməsini sifariş vermək üçün kəsilmədən istifadə edirlər. Bu xidmətlərə daimi yaddaşa, şəbəkəyə və kompüterin digər resurslarına müraciət daxildir. Baxdığımız halda biz sistemdən proqramı söndürməyi xahiş edirik.
Bütün bu deyilənlərdən belə aydın olur ki, baxdığımız proqram icraya başlayır,prosessorun **%eax** reqistrinə 1 qiyməti yazır və icrasın başa çatdırır.

Assembler dilində proqramların icrası
Yuxarıda verilmiş proqramı icra edək. Bunun üçün proqram kodunu **proq1.s** adlı mətn faylında yadda saxlayırıq. **proq1.s** -dən icra oluna bilən proqram almaq üçün onu yığmalıyıq. Terminaldan **prog1.s** faylı yerləşən qovluğa daxil oluruq və aşağıdakı əmrləri daxil edirik:
as prog1.s -o prog1.o
ld prog1.o -o prog1
Nəticədə işci qovluqda **proq1** adlı yeni proqram faylı yaranacaq. Bu proqramı icra eləmək üçün **./prog1** əmrini daxil edirik.
Aşağıdakı kimi:
```
[user@unix progs]$
[user@unix progs]$ as prog1.s -o prog1.o
[user@unix progs]$ ld prog1.o -o prog1
[user@unix progs]$ ./prog1
[user@unix progs]$
```

Qeyd: Kitabda daxil etdiyimiz bütün proqramlar bu üsulla yığılıb yerinə yetirilir. Proqramı icra etdikdə, gördüyümüz kimi heç bir nəticə almırıq, proqramı yükləyən kimi o dərhal başa çatır. Ancaq gördüyümüz işin doğruluğunu yoxlamaq üçün nəticəni test edə bilmək mütləq vacibdir. Ən azından ekranda hansısa məlumat çap edə bilsək nəyisə yoxlaya bilərik. Amma təəssüf ki, bunu etmək üçün əlimizdə yüksək səviyyəli dillərdə olduğu kimi **printf, std::cout, Console.writeln** v.s. kimi funksiyalar yoxdur. Buna görə assemblerdə çap etməni örgənənə kimi bir müddət primitiv üsullarla nəticələri yoxlamalı olacağıq.
Misal üçün əgər proqramın sonunda **%ebx** reqistrinə hansısa məlumat yazsaq, proqramı icra etdikdən sonra bu məlumatı **echo $?** əmri ilə örgənə bilərik.
Gəlin assembler dilində ikinci proqramımıza nəzər salaq.

```
#proq2.s
```

```
.text
.globl _start

_start:

movl $4, %ebx

movl $1, %eax
int  $0x80
```

Bu proqramı yığıb, icra etsək və dərhal sonra **echo $?** əmrini daxil etsək onda ekranda 4 qiyməti çap olunar.

Nəticə:

```
[user@unix progs]$
[user@unix progs]$ as proq2.s -o proq2.o
[user@unix progs]$ ld proq2.o -o proq2
[user@unix progs]$ ./proq2
[user@unix progs]$ echo $?
4
[user@unix progs]$
[user@unix progs]$
```

Bu başlıqda biz prosessorun məlumat reqistrləri, proqramın əsas struktur vahidləri, assembler dilində proqram yazmaq, yığmaq və test etmək qaydaları ilə tanış olduq. Növbəti başlıqda biz **CPU** -nun bəzi ümumi instruksiyaları ilə tanış olacayıq.

Tapşırıq:

1. Hər dəfə **%ebx** reqistrinə 0-la 255 arasında olan müxtəlif qiymətlər verməklə proq2.s proqramını bir neçə dəfə təkrar yerinə yetirib nəticəni yoxlayın.

$2 Sadə instruksiyalar

mov instruksiyası

Prosessorun məlumat üzərində yerinə yetirdiyi ən əsas işlərdən biri məlumatı bir yerdən başqa yerə köçürməkdir. Bunun üçün proqramlarda **mov** instruksiyasından istifadə olunur.

Mov instruksiyası iki arqument qəbul edir, **mov arq1, arq2**. Arq1 köçürülən məlumatı, arq2 isə məlumatın köçürüldüyü yeri bildirir.

Arqument olaraq mov instruksiyasına hər hansı ədəd, reqistr və ya yaddaş ünvanı verə bilərik. Misal üçün aşağıdakı instruksiya ilə prosessorun **%ecx** reqistrində olan məlumat **%eax** reqistrinə köçürülür:

movl %ecx, %eax

Mov instruksiyasının imkanları çox genişdir,belə ki, bu instruksiya vastəsilə məlumatı reqistrlərdən fiziki yaddaşa, fiziki yaddaşdan reqistrlərə, bir reqistrdən digərinə v.s. köçürmək olur. Bunlar ilə irəlidə kompüterin fiziki yaddaşının strukturunu örgəndikdən sonra məşğul olacayıq. Hələlik isə ancaq reqistrlərlə işləyək.

Başqa bir nümunəyə baxaq:

movl $5, %ebx

Bu instruksiya isə prosessorun **%ebx** reqistrinə 5 qiyməti yazır.

add instruksiyası

Add instruksiyası iki məlumatı cəmləmək üçün istifadə olunur.

add arq1, arq2

Bu zaman **arq1** ilə **arq2** -nin cəmi hesablanır və nəticə **arq2** -nin üzərinə yazılır. Add instruksiyasına aid nümunələrə baxaq:

```
add %eax, %ebx
add $56, %ecx
add dey1, %edx
```

Birinci instruksiya **%eax** reqistrində olan məlumatı **%ebx** -dəki ilə cəmləyir və nəticəni **%ebx** -ə yazır, ikinci instruksiya **%ecx** reqistrinin qiymətin 56 vahid artırır, üçüncü instruksiya isə fiziki yaddaşda yerləşən **dey1** dəyişəninin qiymətini **%edx** -in qiməti ilə cəmləyir və nəticəni **%edx** -ə yerləşdirir.

Assembler dilində sadə cəmləmə proqramına baxaq:

```
#proq3.s

.text
.globl _start

_start:

movl $23, %ecx
movl $5, %exb

add  %ecx, %ebx

movl $1, %eax
int  $0x80
```

Proqramı icra edək:

```
[user@unix progs]$
[user@unix progs]$ as proq3.s -o proq3.o
[user@unix progs]$ ld proq3.o -o proq3
[user@unix progs]$ ./proq3
[user@unix progs]$ echo $?
28
[user@unix progs]$
```

Proqramın izahı:

Proqramın ilk sətirlərinin izahını bilirik. **movl $23, %ecx** instruksiyası **%ecx** -ə 23 qiymətini yazır. **movl $5, %exb** instruksiyası isə **%ebx** -ə 5 qiymətini yazır. add **%ecx**, **%ebx** instruksiyası **%ecx** -dəki məlumatı **%ebx** -in üzərinə əlavə edib, nəticəni **%ebx** -də saxlayır.

sub instruksiyası

sub - çıxma instruksiyasıdır. Bu instruksiya **add** instruksiyası ilə eyni qəbildən olan instruksiyadır, sadəcə **sub** birinci arqumentin qiymətini ikincidən çıxıb nəticəni ikinciyə yerləşdirir, misal üçün:

subl $5, %eax

instruksiyası **eax** reqistrinin qiymətini 5 vahid azaldar.

mull instruksiyası

mull - vurma instruksiyasıdır. O da **add** instruksiyasına analojidir, belə ki, iki arqument qəbul edir, **mull arq1, arq2**. Birinci ilə ikinci arqumentin hasilini hesablayıb ikinciyə yerləşdirir.

div instruksiyası

div - bölmə instruksiyasıdır. Sintaksisi divl arq şəklindədir. Bu zaman div instruksiyası **%edx:%eax** -də yerləşən qiyməti arq -a bölür. Arqument olaraq reqistr və ya nişan göstərilə bilər. Qismət **%eax**, qalıq isə **%edx** instruksiyasına yerləşdirilir. Misal üçün 523 ədədini 8 -ə bölək.

```
movl $0, %edx
movl $523, %eax
movl $8, %ecx
divl %ecx
```

Bölmə həyata keçirilmişdir, **divl** instruksiyasından sonra **%eax** -də qismət, **%edx** -də isə qalıq yerləşir.

$3 Fiziki Yaddaşın Strukturu

Fiziki Yaddaş hər-birinin ölçüsü eyni olan və ardıcıl yerləşdirilmiş kiçik yaddaş hissələrindən – **BAYTLARDAN** ibarət bir sahədir.
1 bayt ən kiçik yaddaş hesab olunur və bu ölçüdə yaddaşda 0-dan 255 -ə (255 də daxil olmaqla) kimi ədəd yerləşdirmək olar(natural ədədlər).
Onu da nəzərinizə çatdırım ki, fiziki yaddaşda ədəddən başqa heçnə yerləşdirə bilmərik. Yəni bizim musiqi, şəkil, mətn, proqram faylları v.s. kimi adət etdiyimiz şeylər kompüterin yaddaşında ədədlər ardıcıllığından başqa bir şey deyillər.
Biz qeyd elədik ki, yaddaş ardıcıl düzülmüş və hər-birinin ölçüsü eyni olan kiçik yaddaş hissələrindən – baytlardan ibarətdir. Kompüter yaddaşı ilə bağlı digər mühüm məsələ **ÜNVAN** məsələsidir. Fiziki yaddaşı təşkil edən hər-bir baytın öz ünvanı olur. Fiziki yaddaşı təşkil edən baytlar ardıcıl düzülür,və 0-dan başlayaraq nömrələnir.
Yəni yaddaşın ilk baytının nömrəsi 0, növbəti baytın nömrəsi 1, v.s.
TƏRİF: Fiziki yaddaşda verilmiş baytın sıra nömrəsi onun ÜNVANI adlanır.
Yeri gəlmişkən qeyd edim ki, Fiziki yaddaş bizim bildiyimiz RAM qurğusudur.
Tapşırıq:
1. Həcmi 512 MB, 1GB, 2 GB olan fiziki yaddaşın sonuncu baytının ünvanını hesablayın.
2. Yuxarıdakı məsələdə aldığınız ünvanları 16-lıq (hex) say sistemi ilə ifadə edin.
3. Sonuncu baytının ünvanı **0xffffffff** olan fiziki yaddaşın həcmini hesabalayın.
Fiziki yaddaşdan əlavə kompüterin daimi yaddaş qurğuları da mövcuddur. Bunlara **Sərt disk**, **CD/DVD**, **USB** disk v.s. misal gətirmək olar. Daimi yaddaş məlumatın uzun müddət saxlanması üçün istifadə olunur. Proqramı icra edərkən əməliyyatlar sistemi proqramın obyekt faylını daimi yaddaşdan fiziki yaddaşa köçürür. Fiziki yaddaşda isə uzun müddət saxlanılan məlumatlar yox, icra olunan proqramlar yüklənir. Fiziki yaddaş məhs bu məqsədlə hazırlanıb və onunla **CPU** arasında məlumat mübadiləsi çox sürətlidir. Daimi yaddaşa isə **CPU** birbaşa müraciət etmir. Bundan sonra yaddaş dedikdə yalnız fiziki yaddaş qurğusu başa düşülür.

Prosessorun Məlumata Müraciətetmə Üsulları

Prosessorun əldə etdiyi məlumat birbaşa instruksiyanın daxilində, fiziki yaddaşda və ya reqistrdə ola bilər. Prosessor məlumata 2 üsulla müraciət edə bilər: birbaşa və fiziki yaddaşdan. Birbaşa müraciət zamanı məlumat ya instruksiyanın daxilində, ya da reqistrdə yerləşir.
Müasir prosessorlar fiziki yaddaşda yerləşmiş məlumata **mov** – köçürmə instruksiyasından istifadə etməklə müxtəlif yollarla müraciət edə bilər. Biz aşağıda bu qaydalar və onların assembler dilində istifadəsi ilə tanış olacayıq. Məlumatın köçürülməsi üçün prosessorun istifadə elədiyi işci instruksiyası mov instruksiyasıdır. mov instruksiyasının sintaksisi ilə biz artıq tanışıq:
mov arq1, arq2
Bu zaman **arq1** məlumatı **arq2** -yə köçürülür. İndi cavab axtırdığımız sual **mov** instruksiyasına **arq1** və **arq2** olaraq hansı arqumentləri verə bilərik sualıdır. Burada bir neçə müxtəlif məqam var ki, ilk dəfəyə başa düşməyə çətinlik yaradır. Məqsəd məlumatı köçürməkdir. **arq1** köçürülən məlumatı, **arq2** isə bu məlumatın köçürüldüyü yeri bildirir. mov instruksiyası 4 müxtəlif yolla məlumatı köçürə bilər: konkret verilən məlumat, konkret fiziki ünvanı verilən məlumat, reqistrdə yerəşən məlumat, fiziki ünvanı reqistrdə yerləşən məlumat.
Mənsəb isə, yəni məlumatın köçürüldüyü yer 2 -dir: fiziki yaddaş və ya **CPU** -nun

reqistri. Birinci arqument olaraq hər-hansı ədəd, nişan və ya reqistr verilə bilər. Misal üçün aşağıdakı kimi.

```
movl 45, %eax
movl %ecx, %edx
movl dey, %ebx
movl 67, melumat
```

Assembler dilində nişanlar proqramda hər-hansı məlumat və ya kod ünvanını bildirmək üçün istifadə olunur. Bundan əlavə arqumentlər bəzən mötərizə arasında da göstərilə bilər. Məsələn:

```
movl (%ecx), %edx
movl (67), melumat
```

Əlavə olaraq arqumentlərin əvvəlinə **$** işarəsi də artıtıla bilər. Misal üçün:

```
movl $45, %eax
movl $dey, %ebx
```

Bütün bunların hamısının əlbəttdə öz mənası var, gəlin onlarla tanış olaq.

1. Arqument olaraq ədəd verilir.

Əgər arqument olaraq ədəd verilirsə bu Fiziki Ünvan bildirir. Misal üçün movl 45, **%ebx** instruksiyasında birinci arqument olaraq 45 ədədi göstərilmişdir. Bu Fiziki yaddaşın 45 nömrəli baytını bildirir. Bu instruksiya icra olunanda yaddaşın 45-ci baytından etibarən növbəti 4 bayt (45-48 -ci baytlar) **%ebx** registrinə köçürülür.

2. Arqument olaraq ədəd verilir və qarşısında $ işarəsi qoyulur.

Əgər arqumentin qarşısında $ işarəsi yerləşirsə, bu zaman artıq fiziki ünvan yox, sadəcə ədəd başa düşülməlidir. Misal üçün **movl $45, %eax** instruksiyası **%eax** reqistrinə 45 ədədini yerləşdirəcək. Bunun Fiziki yaddaşın 45-ci baytında yerləşən məlumatla heç bir əlaqəsi yoxdur.

3. Arqument olaraq nişan göstərilir.

Nişanlar qeyd elədik ki, hər hansı kod və ya məlumatın fikizi yaddaşda yerləşdiyi yeri bildirir. Bu barədə ətraflı dəyişənləri keçdikdə tanış olacayıq. Hələlik isə sadəcə nəzərə alaq ki, nişanlar hər-hansı məlumat və ya kod hissəsinin fiziki ünvanının adla əvəzolunmuş formasıdır. Əgər mov instruksiyasına arqument olaraq nişan verilibsə bu zaman həmin nişanın fiziki yaddaşda istinad elədiyi məlumat nəzərdə tutulur. Misal üçün movl dey, **%ecx** instruksiyası dey - ünvanında yerləşən 4 bayt məlumatı **%ecx** reqistrinə köçürür.

4. Arqument olaraq nişan verilir və qarşısına $ işarəsi qoyulur.

Əgər arqument olaraq nişan verilirsə və qarşısına **$** qoyulursa bu zaman həmin nişanın bildirdiyi fiziki ünvan başa düşülür. Misal üçün **movl $dey, %edx** instruksiyası dey nişanının istinad elədiyi fiziki ünvanı (baytın nömrəsi) **%edx** reqistrinə yazır.

5. Arqument olaraq reqistr verilir.

Əgər arqument olaraq reqistr verilirsə bu zaman həmin reqistrdə yerləşmiş məlumat nəzərdə tutulur. Misal üçün **movl %edx, dey** instruksiyası **%edx** reqistrində olan məlumatı dey dəyişəninə yazır.

6. Arqument olaraq reqistr verilir və arqument mötərəzə işarəsi içinə yerləşdirilir.

Əgər arqument mötərizə işarəsi içindədirsə bu zaman fiziki ünvan başa düşülür. Misal üçün **movl (%edx), %eax** instruksiyası artıq **%edx** reqistrində olan məlumat deyil, fiziki ünvanı **%edx** -dəki ədədə bərabər olan məlumatı **%eax** reqistrinə köçürür. Bu zaman **%edx** -də olan ədəd köçürüləcək məlumatın fizki ünvanını bildirir.

7. Arqument olaraq ədəd, nişan, reqistr və mötərizədən istifadə olunur.

Misal üçün **movl dey(%ecx, %edx, 4), %ebx** . Bu zaman **dey(%ecx, %edx, 4)** ünvanında yerləşən məlumat **%ebx** reqistrinə köçürülür. Bu halda mənbə ünvanın hesablanması üçün aşağıdakı qaydadan istifadə edirlər:

Yekun ünvanın hesablanması qaydası

Başlanğıc_Ünvan (%sürüşmə_reqistri, %index_reiqstri, əmsal) şəklində verilmiş ünavanı yekun ünvana çüvirmək üçün aşağıdakı düsturdan istifadə olunur:

Yekun_ünvan = Başlanğıc_ünvan + %sürüşmə_reqistri + %index_reqistri * əmsal;

Burada **Başlanğıc_ünvan** və **əmsal** olaraq nişan və ya ədəd, **%sürüşmə_reqistri** və **%index_reqistri** olaraq isə reqistrlərdən istifadə olunur.

misal üçün:

movl dey(%eax, %ecx, 4), %edx

Bu zaman əvvəl yuxarıdakı düsturla müraciət olunan yaddaş ünvanı hesablanır:

dey + %eax + %ecx*4;

Sonra fiziki yaddaşda bu ünvanda yerləşən məlumat **%edx**-ə köçürülür. Bu sintaksisdə bütün parametrlərin olması vacib deyil. Əgər hər hansı parametr verilməyibsə onun qiyməti 0 qəbul olunur.

misal üçün: **dey(%eax)** nümunəsində **%index** və əmsal həddlərinin, **dey(,%ecx, 5)** nümunəsində **%sürüşmə** həddinin, **(%eax)** nümunəsində **başlanğıc_ünvan**, **%index** və **əmsal** həddlərinin qiymətləri 0-ra bərabər qəbul olunur.

$4 Dəyişənlər.

Cərgələrin elan olunması .

Əvvəlki Dəyişənlər proqramın **.data** hissəsində elan olunur. Dəyişənlərdən hər - hansı məlumat saxlamaq üçün istiad olunur. Assembler dilində dəyişən elan elan etmək üçün aşağıdakı sintaksisdən istifadə olunur.

```
nişan:
.tip  ilkin_qiymət
```

nişan dəyişənin adını bildirir. tip isə dəyişənin yaddaşda neçə bayt yer tutduğunu göstərir. Qeyd edim ki, assembler dilində yüksək səviyyəli dillərdə olduğu kimi tam tipi, həqiqi tipi, v.s. tiplər xarakteristik deyil. Tip deyərkən əsasən yaddaşda tutulan yerin ölçüsü başa düşülür. Ən geniş istifadə olunan tiplər aşağıdakılardır: **byte**, **int**, **long** və **ascii**. **byte** və **ascii** tiplər bir bayt, **int** və **long** isə uyğun olaraq 2 və 4 bayt qədər yer tutur. **ascii** tipindən Simvol tipli məlumatları yerləşdirmək üçün istifadə olunur.

Misal üçün **dey1** və **dey2** adlı iki dəyişən elan etmək istəsək, aşağıdakı kimi yazmalıyıq

```
dey1:
.long

dey2:
.long
```

Bu zaman yaddaşda **dey1** və **dey2** adlı hər biri 4 bayt yer tutan iki dəyişən elan etmiş oluruq.

Əgər elan zamanı dəyişənlərə ilkin qiymət mənimsətmək istəsək onda bu qiyməti tipdən sonra qeyd etməliyik, aşağıdakı kimi

```
dey1:
.long 34
```

Bu zaman artıq **dey1** dəyişənin ilkin qiyməti 34 olar.

Cərgələrin elan olunması

Yüksək səviyyəli dillərdə olduğu kimi, assembler dilində də cərgələrdən (massivlər) istifadə etmək mümkündür. Bunun üçün adi dəyişənlər elan etdiyimiz qaydadan istifadə olunur, sadəcə olaraq bu zaman cərgənin elementləri qeyd edilərək vergüllə ayrılır. Misal üçün **byte** tipindən olan 5 elementli f cərgəsi elan etmək istəsək onda aşağıdakı kimi yazmaq lazımdır

```
f:
.byte 1,3,45,6,7
```

Bu zaman biz cərgənin elementlərinə ilkin qiymətlər mənimsətmiş olduq.

Sətirlərin elan olunması

Assmebler dilində sətir elan etmək istəsək onda yenə də adi dəyişən elan etmə yolundan istifadə edəcəyik və tip olaraq **ascii** seçəcəyik. İlkin qiymət olaraq isə cütdırnaq arasında elan etmək istədiyimiz sətri yerləşdirəcəyik, misal üçün aşağıdakı kimi

```
set:
.ascii "Salam dunya"
```

Bu qayda ilə biz Salam dunya sətrini elan etmiş oluruq.

Dəyişənlərin qiymətlərinə müraciət.
Gəlin assembler dilində dəyişənlərə aid bir neçə proqram nümunəsinə baxaq. **proq3.s** -də biz iki ədədin cəmini hesabladıq. Ədədlərin qiymətlərini reqistrlərdə yerləşdirdik. İndi artıq biz fiziki yaddaşa müraciət edə bilərik. Gəlin eyni proqramı dəyişənlərdən istifadə etməklə tərtib edək.
İki ədədin cəmi proqramı, proq4.s

```
#pro14.s

.data

eded1:
.long 45

eded2:
.long 34

.text
.globl _start
.type _start,@function

_start:

movl eded1, %eax
movl eded2, %ebx

addl %eax, %ebx

movl $1, %eax
int $0x80
```

Proqramı kompilyasiya və icra edək:

```
[user@unix progs_as]$
[user@unix progs_as]$ as proq4.s -o proq4.o
[user@unix progs_as]$ ld proq4.o -o proq4
[user@unix progs_as]$ ./proq4
[user@unix progs_as]$ echo $?
79
[user@unix progs_as]$
[user@unix progs_as]$
```

jmp instruksiyası
jmp instruksiyası (hoppanmaq) proqramın icra istiqamətini bir yerdən başqa yerə yönləndirmək üçün istifadə olunur. Əsasən **cmp** instruksiyası ilə birlikdə istifadə olunur. Yəni müqaisənin nəticəsindən asılı olaraq proqramın icrasını bu və ya digər yerdən davam etdirmək.
jmp instruksiyasının sintaksisi aşağıdakı kimidir:
jmp mövqe
Bu zaman icraolunma artıq "**mövqe**" adlı yerə sıçrayır.

Sadə proqrama baxaq.

```
    # proq6.s

     .text
     .globl _start
     .type _start,@function

_start:

     movl $1, %ecx
     movl $5, %edx
     addl %ecx, %edx

     movl $6, %ebx

     addl %edx, %ebx

son:
     movl $1, %eax
     int $0x80
```

Bu proqramda biz **_start** -dan əlavə son nişanını tərtib etmişik. Nişanları yuxarıda qeyd elədiyimiz kimi proqramın məlumat və kod hissəsinin istənilən yerində elan edə bilərik. Proqram **_start** -dan başlayaraq aşağı doğru yerləşmiş instruksiyaları ardıcıl icra edir. Proqramı icra eləsək nəticə olaraq 12 alarıq. İndi isə proqramda **jmp** instruksiyasından istifadə edək.

```
    # proq6.s

     .text
     .globl _start
     .type _start,@function

_start:

     movl $1, %ecx
     movl $5, %edx
     addl %ecx, %edx

     movl $6, %ebx
     jmp son

     addl %edx, %ebx

son:
     movl $1, %eax
     int $0x80
```

Əgər bu proqramı icra eləsək onda cavab olaraq 6 qiymətini alarıq. Səbəb isə odur ki, **movl $6, %ebx** instruksiyasından sonra **jmp son** instruksiyası icra olunur. Nəticədə **addl %edx, %ebx** instruksiyası icra olunmadan **son** nişanına keçid baş verir.

cmp instruksiyası

Məlumatların qiymətlərini müqaisə etmək üçün **CPU cmp** instruksiyasından istifadə edir. **cmp** instruksiyasının sintaksisi aşağıdakı kimidir:

cmp arq1, arq2

arq1 ilə **arq2** -in qiyməti yoxlanılır və nəticə **flags** reqistrində qeydə alınır. Müqaisənin nəticəsindən asılı olaraq bu və ya digər əməliyyatı icra etmək üçün **cmp** instruksiyasından sonra şərti keçid instruksiyalarından istifadə etməliyik.

Şərti keçid instruksiyaları aşağıdakılardır:

jg, jge, jl, jle, je, jne.

(jump great, jump great equal, jump less, jump less equal, jump equal, jump not equal)

Bu keçid instruksiyaları iki kəmiyyətin müqaisəsinin bütün mümkün nəticələrini uyğun olaraq aşağıdakı kimi nəzərə alır: keç əgər ikinci arqument birincidən böyükdürsə, böyük bərabərdirsə, kiçikdirsə, kiçik bərabərdirsə, bərabərdirsə, fərqlidirsə.

proqram nümunəsi: İki ədədin böyüyünü tapan proqram tərtib edək.

```
#prog7.s


.data

eded1:
.long 110

eded2:
.long 15

.text

.globl _start
.type _start, @function


_start:

#eded1 -i eax -e yaz

movl eded1, %eax
#eded2 -ni ebx -e yaz

movl eded2, %ebx

#ededleri muqaise et, eger ikinci birinciden boyukdurse

# son -a kec, cunki artiq boyuk eded ebx -dedir

cmpl %eax, %ebx
jg son

#birinci boyukdur, onu ebx -e kocur

movl %eax, %ebx

son:
```

```
movl $1, %eax
int $0x80
```

Proqramın izahı:

Biz əvvəlcə **eded1** və **eded2** -nin qiymətlərini uyğun olaraq **%eax** və **%ebx** reqistrlərinə köçürdük. Daha sonra **cmp** vastəsilə bu qiymətləri müqaisə etdik. Əgər **%ebx %eax** -dən böyük olarsa bu zaman **jg** instruksiyası **son** -a keçəcək, əks halda **(%eax > %ebx)** olarsa proqramın icrası növbəti instruksiyadan davam edir. **movl %eax, %ebx**. Böyük qiymət **%ebx** -ə yazılır. Proqram sona çatır.

Tapşırıq:

1. eded1 və **eded2** -yə (0-255 arası) müxtəlif qiymətlər verməklə proqramı test edib necə işlədiyin yoxlayın.

$5 Dövrlər.

Proqramda bəzən hansısa əməliyyatları müxtəlif şərtdən asılı olaraq bir neçə dəfə təkrarlamaq lazım gəlir. Yüksək səviyyəli dillərdə bunun üçün xüsusi dövr operatorlarından istifadə olunur(**for**, **while** ...). Assembler dilində isə hər-hansı kod parçasın təkrarlamaq üçün cmp və jmp instruksiyalarından istifadə edirlər. Əslində yüksək səviyyəli dillərdə istifadə olunan dövr operatorları da aşağı səviyyədə cmp və jmp instruksiyaları ilə realizə olunur.
Sadə dövrdən istifadə edən proqram nümunəsi ilə tanış olaq. Verilmiş ədədlər ardıcıllığı içərisində ən böyüyünü tapan proqram.
Tutaq ki, bizə 7 ədəd verilmişdir. Bu ədədlər içərisində ən böyüyünü tapan proqram tərtib edək. Bu zaman biz cərgədən (massiv) istifadə edəcəyik. Cərgənin elan olunması ilə yuxarıda tanış olmuşuq.

```
        #prog8.s

        .data

        eded_ard:
        .long 241, 15, 242, 123, 50, 100, 240

        say:
        .long 7

        .text

        .globl _start
        .type _start,@function


        _start:

        movl $0, %ebx
        movl $0, %edx

dovr:
        cmpl say, %edx
        je son

        movl eded_ard(,%edx,4), %eax
        cmpl %eax, %ebx
        jg boyuk
        movl %eax, %ebx
boyuk:
        incl %edx
        jmp dovr

        son:

        movl $1, %eax
        int $0x80
```

Programın izahı:
Proqramın məlumat hissəsində (**.data**) biz aşağıdakı məlumatları yerləşdiririk.
Əvvəl biz 7 ədəddən ibarət ardıcıllıq elan edirik.

```
eded_ard:
.long 220, 15, 3, 123, 50, 100, 240
```

Daha sonra isə say nişanı.

```
say:
.long 7
```

Say dəyişənində biz ədələrin sayını yerləşdiririk. Bu bizə dövrün bitməsi şərtini yoxlamaq üçün lazımdır.
Daha sonra proqramın instruksiyalar hissəsini elan edirik.
.text
%edx reqistrində biz nəzərdən keçirdiyimiz ədədlərin sayını saxlayırıq. Ona görə ilk başlanğıcda bu reqistrə 0 qiyməti yerləşdiririk. Hələlik heç bir ədədin qiymətini yoxlamamışıq.
movl $0, %edx
%ebx -də isə ədədlər ardıcıllığından nəzərdən keçirdiyimiz ədədlər içərisindən ən böyüyünü yerləşdiririk. Dövr hər dəfə təkrarlandıqca cərgənin növbəti elementinin qiyməti **%eax** reqistrinə köçürülür və onun qiyməti **%ebx** ilə müqaisə olunur. Əgər böyükdürsə həmin qiymət **%ebx** -ə yazılır. Beləliklə **%ebx** -də həmişə baxılan ədədlər içərisində ən böyüyü yerləşir. Başlanğıcda isə **%ebx** -də 0 qiyməti yerləşdirməliyik.
Növbəti sətirdə biz **dovr** nişanını elan edirik.
dovr:
Bu nişan dövrün başlanğıcı hesab olunur. Daha sonra biz say dəyişəni ilə **%edx** -də olan qiyməti müqaisə edirik(**cmpl say, %edx**). Əgər onlar bərabərdirsə deməli bütün ədədlər yoxlanılıb dövrdən çıxırıq(**jmp son**).

```
cmpl say, %edx
je son
```

%edx -də biz baxdığımız ədədlərin sayını saxlayırıq və başlanğıcda ona 0 mənimsətmişik. Dövr hər dəfə təkrarlandıqda biz **%edx** -in qiymətin 1 vahid artırırıq. Növbəti instruksiya hər dəfə dövr təkrar olduqda **eded_ard** cərgəsinin növbəti elementini **%eax** registrinə köçürür.

```
movl eded_ard(,%edx,4), %eax
```

Burada **FİZİKİ ÜNAVININ** hesablanma düsturunu yada salsaq mənbə ünvan aşağıdakı kimi hesablanır:

```
eded_ard + 0 + %edx*4
```

eded_ard məlumatın yaddaşdakı ünavanıdır. Mötərizədən sonrakı birinci həd buraxıldığından onun qiyməti 0 götürülür. Cəmin üzərinə **%edx** -lə 4 - ün hasili əlavə olunur. Beləliklə köçürülməli olan məlumatın yekun ünvanı hesablanır. Dövrün başlanğıcında **%edx** -in qiyməti 0 olduğundan düsturun nəticəsi elə **eded_ard** olacaq. Bu isə cərgənin ilk elementinin ünvanıdır. Beləliklə dövrün başlanğıcında bu instruksiya icra olunduqda cərgənin ilk elementi yəni 220 **%eax** -ə yazılır. Dövr hər dəfə təkrarlandıqda qeyd etdiyimiz kimi **%edx** -in qiyməti 1 vahid artır. Bu isə yuxarıdakı düstura görə ünvanın qiymətini 4 vahid artırır və cərgənin növbəti

elementinin ünvanını almış oluruq. Cərgənin elementlərinin tipini long elan etdiyimizdən onun hər bir elementi yaddaşda 4 bayt yer tutur və cərgənin elementləri yaddaşda ardıcıl yerləşir. Buna görə **k**-cı elementin ünvanını almaq üçün ilk elementin ünvanının üzərinə **(k-1)*4** əlavə etməliyik.
Növbəti instruksiyalar aşağıdakı kimidir:

```
        cmpl %eax, %ebx
        jg boyuk
        movl %eax, %ebx
```

Burada **%ebx** nəzərdən keçirdiyimiz ədərlər içərisində ən böyüyünü, **%eax** isə cərgənin növbəti elementinin qiymətini özündə saxlayır. Əgər **%ebx %eax** -dən böyükdürsə onda **%eax** -də olan qiymət bizim üçün maraqlı deyil və biz **jb boyuk** instruksiyası ilə boyuk nişanına keçid edirik. Harada ki, yeni dovrə keçid işləri üçün hazırlıq işləri görülür və yeni dövrə keçid edilir. Lakin əks halda, yəni **%eax %ebx** -dən böyük olarsa deməli cərgənin hal - hazırda baxılan qiyməti indiyə kimi baxdığımız qiymətlərdən böyükdür və maksimum olaraq onu götürməliyik. Bu halda artıq jg boyuk (**jump great**) instruksiyası icra olunmur və növbəti instruksiya, **movl %eax, %ebx** instruksiyası icra olunur və **%eax** -in qiymətin **%ebx** -ə yazır. Nəticədə **%ebx** -də baxılan ədədlərin içərisindən ən böyüyü yerləşir.
Daha sonra proqram kodu aşağıdakı kimidir:

```
boyuk:
        incl %edx
        jmp dovr
```

Buarada artıq qeyd elədiyimiz kimi, boyuk nişanı elan olunur. **incl %edx** instruksiyası **%edx** -in qiymətini 1 vahid artırır. Daha sonra jmp dovr instruksiyası vastəsilə dövrün başlanğıcına (**dovr** nişanı) keçid edilir.
Hər dəfə dövr təkrarlandıqda **%edx** -in qiyməti 1 vahid artdığından **%edx** -in qiyməti **say** qiymətinə bərabər olduqda **son** nişanına keçid edilir və proqram sona çatır.

incl və decl instruksiyaları

incl , decl instruksiyaları müvafiq olaraq arqumentlərinin qiymətlərini bir vahid artırır, azaldır. Bu instruksiyaların əvəzinə **addl $1, arq** və ya **subl %1, arq** -dan da istifad edə bilərik, lakin bunun üçün hazır instruksiya mövcud olduğundan ondan istifadə edirik. Həm də bu zaman eyni nəticənin alınmasına daha az **CPU** vaxtı sərf olunur.

Salam Dünya proqramı

Artıq biz assembler dilində bir qədər mürəkkəb proqramlar tərtib edə bilərik. İndiyə kimi biz nəticəni yoxlamaq üçün ancaq **%ebx** reqistrinin ilk baytından istifadə edə bilirdik. İndi isə bizə lazım olan məlumatın ekranda çap etməni örgənək. Elə proqram tərtib edək ki, ekranda **%ecx** reqistrinin qiymətini çap etsin.
Qeyd eliyim ki, ilk başlanğıcda bu kifayət qədər çətin məsələ olduğundan biz hələki daha asan məsələ üzərində çalışaq. Ekranda verilmiş simvolu, məsələn **'a'** simvolunu çap edən proqram tərtib edək. Əvvəlcə proqramı daxil edək, daha sonra izahını verərik.

```
#proq9.s
# Ekranda kicik 'a' simvolu cap eden proqram

.data

simvol:
.ascii "a"

.text

.globl _start
.type _start, @function

 _start:

 movl $4, %eax
 movl $1, %ebx
 movl simvol, %ecx
 movl $1, %edx
 int  $0x80

 movl $1, %eax
 int  $0x80
```

Əgər biz bu proqramı icra eləsək onda aşağıdakı nəticəni alarıq:

```
[user@unix progs_as]$
[user@unix progs_as]$ as prog9.s -o prog9.o
[user@unix progs_as]$ ld prog9.o -o prog9
[user@unix progs_as]$ ./prog9
a[user@unix progs_as]$
[user@unix progs_as]$
```

Proqramın nəticəsinin daha aydın seçilməsi üçün biz **'a'** simvolundan sonra yeni sətir - **'\n'** simvolunu da çap etməliyik. Müvafiq proqram aşağıdakı kimi olar:

```
.data

simvol:
.ascii "a\n"

.text

.globl _start
.type _start, @function

 _start:

 movl $4, %eax
 movl $1, %ebx
 movl $simvol, %ecx
 movl $2, %edx
 int  $0x80

 movl $1, %eax
 int  $0x80
```

Nəticə:

```
[user@unix progs_as]$
[user@unix progs_as]$ as prog10.s -o prog10.o
[user@unix progs_as]$ ld prog10.o -o prog10
[user@unix progs_as]$ ./prog10
a
[user@unix progs_as]$
```

proq9.s proqamının izahı(proq10.s analojidir):

Proqramın əvvəlində biz **.data** hissəsində ascii tipindən olan simvol nişanı elan edirik və bu yerə **"a"** məlumatını, ekranda çap etmək istədiyimiz sətri yerləşdiririk. Bizim məqsədimiz verilmiş sətri ekranda çap etməkdir. Bunun üçün **%eax**, **%ebx**, **%ecx** və **%edx** reqistrlərinə lazım olan qiymətləri yerləşdirməli, daha sonra isə int **$0x80** instruksiyasını icra etməliyik. **%eax** və **%ebx** reqistrlərinə müvafiq olaraq 4 və 1 qiymətləri yerləşdirilməlidir. **%ecx** reqistrinə çap olunmalı sətrin yaddaşdakı ünvanı, **%edx** -ə isə həmin ünvandan başlayaraq çap olunmalı simvolların sayı yerləşdirilmədir.

Proqramın **.text** hissəsində ilk iki instruksiyası aşağıdakı kimidir:

```
movl $4, %eax
movl $1, %ebx
```

Bu instruksiyalar **%eax** və **%ebx** registrlərinə müvafiq olarq 4 və 1 qimyətlərini yazırlar. Daha sonra **movl $simvol, %ecx** instruksiyası ilə simvol nişanın ünvanını **%ecx** -ə yerləşdiririk. **movl $1, %edx** isə **%edx** -ə 1 qiymətini yazır. Yəni cəmi 1 simvol çap et. Bütün bunlar hamısı hazırlıq işləri idi, sadəcə prosessorun reqistrlərinə lazımı məlumatlar yerləşdirirdi və bu zaman ekranda heçnə çap olunmur. Real iş isə **int $0x80** instruksiyanı yerinə yetirən zaman baş verir. Bu zaman ekranda istədiyimiz sətir çap olunar. int istuksiyası kəsilmə instruksiyasıdır.

Ekranda tələb olunan simvolu çap etdikdən sonra proqram başa çatır, bunun üçün

```
movl $1, %eax
int  $0x80
```

instruksiyalarını icra edirik.

Başqa bir nümunə, ekranda **"Salam dünya"** sətrini çap edən proqram ətrtib edək. Artıq bu proqramı özünüz sərbəst tərtib edə bilməlisiniz. Proqram aşağıdakı kimi olar:

```
.data

simvol:
.ascii "Salam dunya\n"


.text

.globl _start
.type _start, @function

 _start:

 movl $4, %eax
 movl $1, %ebx
```

```
        movl $simvol, %ecx
        movl $12, %edx
        int  $0x80

        movl $1, %eax
        int  $0x80
```

Nəticə:

```
[user@unix progs_as]$
[user@unix progs_as]$ as prog11.s -o prog11.o
[user@unix progs_as]$ ld prog11.o -o prog11
[user@unix progs_as]$ ./prog11
Salam dunya
[user@unix progs_as]$
```

Ekranda simvol və ya sətir çap etməni örgəndik. İndi bundan daha mürəkkəb olan məsələ ilə, verilmiş ədədin ekranda çap olunması ilə məşğul olaq. Əvvəl proqramı daxil edək, sonra izahı verərik.

```
         #prog12.s
         #melumatlar hissesi

         .data

         #cap etmek istediyimiz eded
         dey:
         .long 907841

         onluq_simvollar:
         .ascii "0123456789"

         say:
         .long 0

         yeni_setir:
         .ascii "\n"

       # kod  hissesi
       .text

       .globl _start
       .type _start, @function

_start:

dovr:
         movl $10, %edi
         movl $0, %edx
         movl dey, %eax
         div  %edi

         pushq %rdx
         movl  %eax, dey

         incl say

         movl $0, %esi
```

```
        cmpl dey, %esi
        je dovr_son

        jmp dovr

dovr_son:

        movl $0, %esi

cap_et:
        cmpl %esi, say
        je   yeni_str_cap

        popq %rdi

        movl $4, %eax
        movl $1, %ebx
        movl $onluq_simvollar, %ecx
        addl %edi, %ecx
        movl $1, %edx
        int  $0x80

        incl %esi
        jmp  cap_et

yeni_str_cap:
        #yeni setir cap et
        movl $4, %eax
        movl $1, %ebx
        movl $yeni_setir, %ecx
        movl $1, %edx
        int  $0x80

son:
        movl $1, %eax
        int  $0x80
```

Proqramı icra edək:

```
[user@unix progs_as]$
[user@unix progs_as]$ as prog12.s -o prog12.o
[user@unix progs_as]$ ld prog12.o -o prog12
[user@unix progs_as]$ ./prog12
907841
[user@unix progs_as]$
```

Proqramın izahı:

Proqramın məlumatlar hissəsində (.**data**) long tipindən dey nişanı elan edirik və buraya çap etmək istədiyimiz ədədi yerləşdiririk - 907841 ədədini. Bu ədədi ekranda çap etmək üçün aşağıdakı qaydadan istifadə edirik. Əvvəlcə verilmiş ədədin rəqəmlərini sonuncudan birinciyə kimi bir-bir tapıb stekə yerləşdiririk. Stekin qısa izahı irəlidə verilir,daha ətraflı izah isə növbəti mövzularda verilir.
Daha sonra stekdən bu ədədləri bir-bir çıxarıb onların uyğun gəldikləri simvolu ekranda çap edirik. Burada əsas məsələlərdən biri verilmiş ədədin təşkil olduğu rəqəmləri tapmaqdır. Bunun üçün müxtəlif üsullar olsa da, biz 10-a bölmə və qalığı hesablama qaydasından istifadə edirik. Misal üçün tutaq ki 497 ədədinin

rəqəmlərini tapmaq istəyirik. Bunun üçün yuxarıdakı qaydanı tətbiq eləsək əvvəlcə 497 -ni 10-a bölək. Qismət 49, qalıq isə 7 alarıq. 7 rəqəmlərdən biridir. Daha sonra eyni qaydanı qismətə tətbiq edirik. 49 -u 10 -a bölsək, qismət 4, qalıq isə 9 alarıq. Beləliklə 2 -ci rəqəmi də tapdıq. Bu prosesi qismətdə 0 alana kimi davam etdirsək verilmiş ədədin bütün rəqəmlərini alarıq. Lakin bu üsulun çatışmayan bir cəhəti ondadır ki, bu üsulla ədədin rəqəmləri əks ardıcıllıqla, əvvəldən axıra alınır. misal üçün yuxarıdakı münunədə 497 ədədi üçün biz 7 9 və 4 kimi nəticə alacayıq. Bu şəkildə biz onu çap edə bilmərik. Bu problemi stekdən istifadə etməklə asanlıqla həll etmək mümkündür. **Stek** yaddaşda müəyyən bir sahədir. Bu sahəyə məlumat yerləşdirmək və stekdə olan məlumatı götürmək üçün pushl və popl instruksiyalarından istifadə olunur. Məlumatlar yerləşmə ardıcıllığının əksi istiqamətində stekdən çıxarılır.

Beləliklə bütün rəqəmləri stekə yerləşdirdikdən sonra onları bir-bir stekdən çıxarıb, uyğun gəldikləri **ascii** somvolun ekranda çap etməliyik. Bunun üçün .data hissəsində **onluq_simvollar** nişanı elan edirik və burada 0 -dan 9 -a kimi ascii simvolları yerləşdiririk. Simvol çap etmə ilə yuxarıda tanış olmuşuq. **onluq_simvollar** nişanı bu **simvollar** sətrinin ilk elementinin, **"0"** simvolunun ünvanını özündə saxlayır. Hər bir **ascii** simvolu yaddaşda bir bayt yer tutduğundan verilmiş rəqəmə uyğun simvolun ünvanın almaq üçün **onluq_simvollar** nişanının üzərinə həmin rəqəmi əlavə etməliyik.

Çalışmalar:

1. Verilmiş reqistrin qiymətini ekranda çap edən proqram tərtib edin.

2. Verilmiş reqistrin qiymətini ekranda 16-lıq(hex) say sistemində çap edən proqram tərtib edin.

3. Proqramda hər hansı dəyişən elan edin, onun ünvanın ekranda çap edən proqram tərtib edin.

4. _start nişanının ünvanını çap edən proqram tərtib edin.

$6 Stek.

Hər bir yeni proqram işə salındıqda əməliyyatlar sistemi bu proqram üçün yaddaşda müəyyən yer ayırır. Bu yer yalnız həmin proqrama məxsus olub, onun yaddaş sahəsi adlanır. Proqramın yaddaş sahəsi, başqa sözlə icra olunan proqramın yaddaşdakı surəti aşağıdakı struktura malikdir:

Proqramın icraolunma vəziyyətindəki strukturu:



